

■ Hacı HERİSLİ

## EVDƏ QALAQ

Səninçün çox darıxmışam,
Yenə evdə qalacağam.
Darıxsam da səhər-axşam,
Yenə evdə qalacağam.

Əlim əlindən ayrılıb,
Hər kəs elindən ayrılıb,
Könlüm gülündən ayrılıb,
Yenə evdə qalacağam.

Gülüm, gəl qınama məni,
Korona qurmuş tələni.
Bağrıma basınca səni,
Yenə evdə qalacağam.

Ürəyim əsir dost üçün,
Ailəmə həsrət bu gün.
Sağ görüm hamızı bütün,
Yenə evdə qalacağam.

Qalmışam hamıdan uzaq,
Qorunmaqçün evdə qalaq.
İpimi qırsa darıxmaq,
Yenə evdə qalacağam.

Pərəstar dincələ bir az,
Həkimlər olmasın nasaz.
Gəlsə bayram, yetişsə yaz,
Yenə evdə qalacağam.

## AĞ QANADLI KƏPƏNƏKLƏR

*Həkimlərə*

Odun başına dolandız,
Ağ qanadlı kəpənəklər!
Bəziləriz oda yandız,
Ağ qanadlı kəpənəklər!

Nə dincəldiz, nə yatdınız,
Dərmana umud qatdınız,
Uyanları oyatdınız,
Ağ qanadlı kəpənəklər!

Geyiminiz sülh bayrağı,
Olduz ellərin dayağı,
Qara gecələr çırağı -
Ağ qanadlı kəpənəklər!

Səmanız dağ olsun sizin,
Üzünüz ağ olsun sizin,
Canınız sağ olsun sizin,
Ağ qanadlı kəpənəklər!

Düşmənsiz bir mübarizə
Sizi çökdürəmməz dizə.
Herizli qurbandır sizə,
Ağ qanadlı kəpənəklər!

**Transliterasiya:**
**Məhəmməd Nuri**

Kaspi 2020.- 2-4 may.- S.14.